

KİVDF

**Orxan Məmmədov: "AtaSığorta" bu gün on minlərlə müştərinin əminliklə seçdiyi sığorta şirkətinə çevrilmişdir**

SƏH. 2

ALİM RƏYİ

**Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri**

SƏH. 3



SIĞORTA BAZARI

Sığorta bazarındakı son vəziyyət açıqlandı

SƏH. 6



№ 47 (942) 25 NOYABR - 1 DEKABR 2016-cı il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet | Qiymməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# Daşınmaz əmlak sektoruna aid nüfuzlu şirkətlər Azərbaycanda

**Bakı Ekspo Mərkəzində Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 23-də sərgi ilə tanış olublar.**

Əmlak Məsələləri Dövlət Komitəsi, "Elan Expo" və "Atılım Fuarcılık" şirkətlərinin təşkilatçılığı ilə keçirilən Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisində Azərbaycan ilə yanaşı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Kipr, Ukrayna, İspaniya, Rusiya, Portuqaliya, Macarıstan və Lüksemburqdan 100-ə yaxın brend tikinti və inşaat layihələri nümayiş olunur.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov dövlətimizin başçısına komitənin stendi haqqında məlumat vermişdir. Burada son illərdə Azərbaycanda əmlak-torpaq idarəçiliyi və özəlləşdirmə sahəsində əldə olunan nailiyyətlər nümayiş etdirilir. Dövlətimizin başçısına Əmlak Məsələləri Dövlət Komitəsinin məhsulu olan Ünvan Reyestri İnformasiya Sisteminin məlumatları əsasında hazırlanmış ilk milli naviqasiya sistemi - AzNav barədə məlumat verilmişdir. Naviqasiya sistemi iki komponentdən - Naviqasiya Proqramı və Naviqasiya Xəritəsindən ibarətdir. Həm onlayn, həm də oflayn rejimdə işləmək imkanlarına malik bu sistem Android, iOS, Windows CE əməliyyat sistemlərində olan bütün növ mobil cihazlarda, eyni zamanda, telefon və planşetlərdə çalışır. Naviqasiya sistemi Azərbaycan dili ilə yanaşı, ingilis, rus, alman, ərəb, türk, fransız, italyan və digər xarici dilləri də dəstəkləməklə çoxfunksiyalı imkanlara malikdir. Stenddə özəlləşdirmə prosesi, yaradılmış investisiya mühiti, daşınmaz əmlakın dövlət reyestri sahəsində innovasiyalar, əmlak xidmətləri üzrə elektron və onlayn imkanlar, ünvan-naviqasiya sistemi və digər iri layihələr barədə əyani məlumatlar çatdırılır. Həmçinin özəlləşdirmə prosesini daha optimal, rahat şəkildə həyata keçirmək üçün yaradılmış özəlləşdirmə portalında hərraca çıxarılan əmlaklar və onlara sifariş qaydaları, eləcə də hərrac prosedurları barədə məlumat verilir.

Türkiyə sərgidə 5 şirkətlə təmsil olunur. Bunlar "Dövlət Daşınmaz Əmlak-Mənzil Müştərək İnvestisiya" MMC, həmçinin əmlak layihələrinin satışı şirkəti, "Tahincioğlu", "Ağaoğlu" və "Özak" özəl şirkətlərdirlər. Şirkətlər yaşayış və inzibati binaların tikintisi ilə məşğuldur. Bu şirkətlər sərgiyə Türkiyə Nazirlər Kabineti yanında Sosial Mənzil Baş İdarəsi tərəfindən cəlb olunub.

Sərgidə İspaniyanın CHG şirkəti, Portuqaliyanın "Mare Asset" şirkəti, "Yeni Həyat" Şirkətlər Qrupu, "AAAF Park" yaşayış kompleksi sərgidə yeni layihələrini təqdim etmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" pavilyonuna baxmış, 330 hektarlıq ərazini əhatə edən "Dreamland"-"Xəyal Adası" yaşayış kompleksinin stendi ilə də tanış olmuşlar.

Noyabrın 24-dək davam edən bu mühüm sərgi həm yerli, həm də beynəlxalq müstəvidə daşınmaz əmlak sektoruna aid nüfuzlu şirkətləri, brend layihələri, potensial əmlak investorlarını Azərbaycanda vahid platformada toplamışdı.



# Gəncədə nəhəng aqrosənaye kompleksi yaradılır



**Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Belarus nümayəndə heyətini qəbul edib.**

Elmar Vəliyev Gəncə şəhərində 6 min hektar sahədə modern aqrar-sənaye kompleksinin tikintisinə belaruslu mütəxəssislərin cəlb olunmasının bu sahənin inkişafına təkan verəcəyini bildirib.

Belarusun kənd təsərrüfatı nazirinin birinci müavini Mariniç Leonid Adamoviç vurğulayıb ki, səfərin əsas məqsədi əməkdaşlığın növbəti mərhələlərini müzakirə etməkdir. Belarus Kənd Təsərrüfatı Nazirliyi və Gəncə şəhər İcra Hakimiyyətinin imzaladığı memoranduma əsasən Gəncədə aqrar-sənaye kompleksi tikiləcək. 6 min hektar ərazini əhatə edəcək zavodun 2017-ci ildə tikilib təhvil verilməsi nəzərdə tutulub.

Nazirin birinci müavini bildirib ki, layihənin icra ediləcəyi ərazidən torpaq nümunələri götürülərək, onun məhsuldarlığı və kimyəvi elementləri yoxlanılacaq. Zavodda iribuynuzlu heyvanlardan alınan süddən yerli əhali və region əhalisi üçün süd və süd məhsulları istehsal olunacaq.

Kompleksin yaradılması ilə bağlı birgə əməkdaşlığa dair görüşün yekununda memorandum imzalanıb. Memorandumu Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və Belarus kənd təsərrüfatı nazirinin birinci müavini Mariniç Leonid Adamoviç imzalayıb.

Sonda qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin Belarus Respublikasına işgüzar səfəri çərçivəsində kombinatın tikintisi ilə bağlı razılıq əldə olunub. İcra başçısını və rəhbərlik etdiyi nümayəndə heyətini Belarusun baş nazirinin müavinləri Mixail Rusıy və Vladimir Semaşko qəbul ediblər. Görüş zamanı Gəncə şəhərində aqrar-sənaye kompleksinin inşa olunması üçün birgə işçi qrupu yaradılıb.

# İpoteka üçün borc 3%-lə alınacaq

"Azərbaycan İpoteka Fondu" ASC-nin (AİF) yeni istiqraz emissiyasının parametrləri açıqlanıb. Bu barədə AİF-dən bildirilib.

Xatırladaq ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının qeydə aldığı yeni emissiyanın prospektinə əsasən, dövriyyəyə hər birinin nominal dəyəri 1 000 manat olan 50 min ədəd sənədsiz, faizli, təmin edilmiş ipoteka istiqrazlarının buraxılması nəzərdə tutulub.



Məlumata görə, qiymətli kağızlar 3 600 gün (təxminən 10 il) müddətində dövriyyədə olacaq. Onların illik gəlirliliyi 3% təşkil edəcək. Faizlər 180 gündən bir ödəniləcək. Yerləşdirmənin anderrayteri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-dir.

"Milli valyuta ilə illik 3% gəlirlilik mövcud şəraitdə aşağı olsa da, düşünürük ki, istiqrazları rahatlıqla realizə etmək mümkün olacaq. Əvvəlki illərdə olduğu kimi hüquqi şəxslər – kommersiya bankları və sığorta şirkətləri onları alacaqlar. Bununla belə, fiziki şəxslərin də bu qiymətli kağızları əldə etməsinə heç bir məhdudiyyət olmayacaq" – deyə Fonddan qeyd edilib.




# TIR-lar Azərbaycandan daha sürətlə keçəcək

Bakı limanı yük avtomobillərinin keçidini avtomatlaşdıracaq.

Bakı Limanının Baş direktoru Taleh Ziyadov jurnalistlərə bildirib ki, hazırda limanın proqram təminatının hazırlanması üzərində iş gedir:

"Rusiya ilə Türkiyə arasında olan anlaşmazlıqdan sonra Bakı Limanına böyük bir TIR axını başladı. Daha çox Qazaxıstan istiqamətində axın oldu. Sonra da Ukrayna ilə Rusiya arasında olan məsələlərə görə, Ukraynadan Orta Asiyaya gedən yük avtomobillərində artım başladı. Ümumi istəyimiz budur ki, bu axın müvəqqəti deyil, daimi olsun, yüklər Azərbaycan üzərindən daşınsın. Bu istiqamətdə bir neçə addım atılıb. Addımlardan biri də Bakı Limanının proqram təminatının hazırlanmasıdır. Biz Dövlət Gömrük Komitəsilə sıx əlaqədə işləyirik. İstəyirik ki, gömrük ilə əlaqələrmiz avtomatlaşsın. Məsələn, artıq TIR Gürcüstandan Azərbaycana daxil olduqda biz bu barədə elektron məlumat bazası ilə məlumat alacağıq. Biz artıq biləcəyik ki, o TIR nə vaxt bizə çatacaq, harada parkinq edəcək, hansı gəmiyə minməlidir".



Vahid tarifə toxunan Taleh Ziyadov qeyd edib ki, qiymətlərin aşağı salınması üzərində iş gedir:

"Vahid tarifin ortaya qoyulması istiqamətində də artıq Azərbaycan, Qazaxıstan, Gürcüstan və Çin tərəfindən Trans Xəzər Beynəlxalq Konsorsiumu yaradılıb. Vahid tarif vacibdir. Tükiyədən bir TIR göndəriləndə bilmək istəyirlər ki, gedib-qayıtmaq neçəyə başa gələcəkdir və alternativ marşrutlarda bu qiymələr necədir? Ona da baxılacaq. Hal-hazırda bəzi fərqlər var. Məsələn, İran istiqamətindən getmək Azərbaycan üzərindən getməkdən daha ucuzdur. Biz çalışırıq ki, onları da cəlb etmək üçün digər iştirakçılar ilə razılaşdıraraq ümumi qiyməti aşağı salaq və rəqbətqabiliyyətli marşrut olaq".

Taleh Ziyadov qeyd edib ki, əsas məqsəd əlavə dəyərin yaradılmasıdır: "Biz istəyirik ki, Azərbaycana konteyner, TIR ilə gələn yüklər liman ərazisində fəaliyyət göstərəcək azad ticarət zonasında boşaldılaraq əlavə dəyəri artırıldıqdan sonra digər ölkələrə göndərilsin".

Qeyd edək ki, Ələt qəsəbəsində yeni Bakı Limanı fəaliyyət götərir. Hazırda liman üzrə tikinti işləri davam edir və tikintisinin birinci mərhələsi 2017-ci ilin sonunadək başa çatacaq. Liman ərazisində Dubay modelinə bənzər Azad Ticarət Zonasının yaradılması üzərində iş gedir.

# İstismara verilən mənzil sahəsi azalır



2016-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda istismara verilən mənzillərin ümumi sahəsi 1 mln. 373,8 min kvadratmetr təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 7,9% azdır. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bununla belə, oktyabrda Azərbaycanda 168,3 min kvadratmetr yaşayış sahəsi istismara verilib.

Statistik məlumatlara əsasən, cari ilin yanvar-oktyabr ayları ərzində mənzil tikintisinə investisiyalar 488,1 mln. manat təşkil edib (azalma 43,4%).

Xəbər verildiyi kimi, 2015-ci ildə Azərbaycanda istismara verilən mənzillərin ümumi sahəsi 1 mln. 927,2 min kvadratmetr təşkil edib, bu isə 2014-cü ilin göstəricisindən 12,3% azdır.

Mənzil tikintisinə investisiyaların və istismara verilən mənzillərin sahəsinin azalması yaxın gələcəkdə qiymətlərin qalxmasına səbəb ola bilər.

# Azərbaycanlılar dollarlarını Türkiyədə ev alışınıa yönəldirlər

Türkiyədə ev alan xaricilər arasında Azərbaycan vətəndaşları ilk onluqda yer alıb. Cari ilin oktyabr ayı ərzində Azərbaycan vətəndaşları Türkiyədə 42 mənzil alıblar.

Türkiyə Statistika Komitəsinin verdiyi xəbərə görə, ev alışında əvvəlki ayla müqayisədə 13,5% artım qeydə alınıb.

Rəsmi statistikaya əsasən, yanvar-oktyabr ayları ərzində ümumilikdə azərbaycanlılar 507 mənzil alıblar.

Qeyd edək ki, Türkiyədə xaricilərə oktyabrda 1 578, yanvar-oktyabr ayları ərzində isə 14 934 ev satılıb. Oktyabrda ən çox ev alan xaricilər siyahısında birinci yerdə İraq vətəndaşları (257 mənzil) qərarlaşıb. Cəmi yanvar-oktyabr ayları ərzində isə iraqlılar 2 507 ev alıblar. Sonrakı yerlərdə Səudiyyə Ərəbistanı (oktyabrda – 159, yanvar-oktyabrda – 1 446) və Küveyt (oktyabrda – 135, yanvar-oktyabrda – 1 379) vətəndaşları qərarlaşıb.

# "Bank Standard"ın ləğvetmə planına dair iclas keçirilib

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının (Palata) Direktorlar Şurasının üzvləri, Əmanətlərin Sığortalanması Fondunun, "BM Morrison" hüquq şirkəti və KPMG beynəlxalq audit şirkətinin rəhbərliklərinin iştirakı ilə "Bank Standard" KB QSC-nin ləğvetmə planına dair iclas keçirilib.

İclasda çıxış edən Palatanın Direktorlar Şurasının sədri Rüfət Aslanlı bildirib ki, 1 oktyabr 2016-cı ildən etibarən lisenziyası ləğv edilmiş "Bank Standard"ın qorunan əmanətləri üzrə kompensasiyaların 90%-dən çoxu ödənilmiş və bu proses şəffaf şəkildə davam edir. Bankdakı qorunmayan əmanətlər və digər kreditorların vəsaitləri üzrə kompensasiyalar isə "Bank Standard"ın likvid aktivlərinin realizasiyasından sonra qanunvericiliyə uyğun növbəlik prinsipi ilə ödəniləcək.

Onun sözlərinə görə, kreditorların maraqlarını və şəffaflığı təmin etmək məqsədilə ləğvetmə prosesində kreditorların iştirakı təmin olunacaq.

İclasda həmçinin kreditorlara münasibətdə ləğvedicinin fəaliyyəti, o cümlədən ləğvedicinin bankın qiymətləndirilməsi və məhkəmə ilə iş üzrə fəaliyyəti, habelə iflas prosedurunun başa çatması istiqamətində atılacaq növbəti addımlar müzakirə edilmişdir.

Bununla yanaşı, iclasda hazırda aparılan kreditor tələblərinin qeydiyyatının 12 dekabr 2016-cı il tarixində bitməsinin nəzərdə tutulduğu bildirilmişdir. Belə ki, qeydə alınmış tələblər yoxlanılıb, kreditorların reyestrinin təsdiq edilməsi üçün məhkəməyə təqdim ediləcəkdir.

"Bank Standard"ın ləğvetmə planının qanuna müvafiq və qabaqcıl təcrübəyə uyğun tərtib olunaraq icra edilməsi məqsədilə "BM Morrison" hüquq şirkəti məsləhətçi kimi cəlb edilmişdir. Bankın aktivləri, passivləri və balansdan kənar öhdəliklərinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsini və şəffaflığı təmin etmək məqsədilə isə ləğvetmə prosesinə KPMG beynəlxalq audit şirkəti cəlb olunmuşdur..

# "Bravo"nun nəhəng logistika mərkəzi fəaliyyətə başladı

"Bravo" supermarketlər şəbəkəsinin sahibi olan "Azerbaijan Supermarket" MMC şirkəti Lökbatan qəsəbəsi yaxınlığında yeni logistika mərkəzini istifadəyə verib.

Yeni logistika mərkəzi 17000 kvadrat metr əraziyə malikdir.

"Bu mərkəz bizə daha çox məhsul saxlamağa və müştərilərimizə daha çox çeşid təklif etməyə imkan yaradacaqdır",- şirkətdən bildirilib.

**"TEZLİKLƏ BİR ÇOX YERDƏ "BRAVO" AÇILACAQ"**

Digər bir məlumata görə, Ukrayna dairəsi yaxınlığında (Radiozavod) "Bravo" supermarketinin növbəti filialı üçün yeni obyekt tikilir.

Hazırda 2 ünvanda – "Gənclik Mall" ticarət mərkəzində və Bilgəh qəsəbəsində "Amburan Mall" ticarət mərkəzində "Bravo" supermarketi fəaliyyət göstərir.

"Tezliklə Bakının bir çox yerlərində Bravo filiallarının açılışı nəzərdə tutulub",- şirkətdən bildirilib.



KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Orxan Məmmədov: "AtaSığorta" bu gün on minlərlə müştərinin əminliklə seçdiyi sığorta şirkətinə çevrilmişdir

Hazırda sığorta bazarı Azərbaycanda özünün inkişaf mərhələsindədir. Son 10 ildə Azərbaycanın sığorta bazarına nəzər salsaq görərik ki, 1991-ci ildə Azərbaycanda 62 sığorta təşkilatı, o cümlədən 53 milli, 9 birgə sığortaçı fəaliyyət göstərmişdir. Yaradılmış bir çox kommersiya sığorta təşkilatları sığorta olunanların etimadını qazana bilmədiklərinə görə onların 33-ü müflisləşərək öz fəaliyyətini dayandırmışdı. 2006-cı ilin əvvələrində Azərbaycanda qeydiyyatdan keçmiş 29 sığorta təşkilatı fəaliyyət göstərmişdir ki, onlardan 22-si özəl, 6-sı qarışıq mülkiyyət formalı dövlət kommersiya şirkəti olmuşdur.

2010-cu ildə şirkətlərin yığımlarının ümumi həcmi 155,59 milyon manat təşkil etmişdir. 2011-ci ilin yanvar-aprelində ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin mükafatlarının ümumi həcmi 66,342 milyon manat, ödənişlər isə 17,673 (artım 21,71 faiz) milyon manat olmuşdur.

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda fəaliyyət göstərən 25 sığorta şirkətinin xətti ilə ümumilikdə 325,3 mln. manat sığorta haqqı toplanılıb. Maliyyə Bazarlarına Nəzarət Palatasından verilən məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 15% çoxdur. Bu dövr ərzində sığortaçıların həyata keçirdiyi ödənişlərin məbləği isə 119,0 mln. manat təşkil edib ki, bu da 2015-ci ilin eyni dövrü ilə müqayisədə 14% çoxdur. Yığımların 209,1 mln. manatı (64,3%), ödənişlərin isə 87,8 mln. manatı (73,8%) könüllü sığorta növlərinin payına düşüb.

Sığorta şirkətləri arasında fəaliyyətini uğurla həyata keçirən şirkətlərdən biri "AtaSığorta" ASC-dir. "AtaSığorta" ASC 2007-ci ilin yekunlarına görə "İlin Sığorta şirkəti" nominasiyası üzrə "Uğur" Milli Mükafatına, gənclərlə səmərəli iş fəaliyyətinə görə 2010-cu ildə "Gənclərin Dostu" Milli Mükafatına, 2010-cu ilin yekunlarına görə "Nüfuz və Etibar" nominasiyası üzrə "Azeri Business Award" Milli Mükafatına, 2012-ci ilin yekunlarına görə "Sığortaçılığın inkişafına verdiyi töhfəyə görə" nominasiyası üzrə "Uğur 2012" Milli Mükafatına layiq görülmüşdür.

Şirkət 2011-ci ilin sonundan İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. O, 2014-cü ilin sonunda 3 il müddətinə "Intertek" şirkəti tərəfindən İSO 9001:2008 beynəlxalq keyfiyyət sertifikatı almışdır.

**"AtaSığorta" ASC-nin fəaliyyəti ilə oxucuları ətraflı tanış etmək istərdik. Müsahibimiz "AtaSığorta" ASC-nin İdarə Heyətinin sədr müavini Orxan Məmmədovdur.**

**- Orxan müəllim, əvvəlcə istərdim "AtaSığorta" şirkəti haqqında oxucularımıza qısa məlumat vtşerəsiniz.**



- "AtaSığorta" ASC 2004-cü ildən etibarən tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Təsisçisinin (səhmdarı) AtaHoldinq olduğu şirkətin aktivlərinin ümumi həcmi 35,0 mln., ödənilmiş nizamnamə kapitalı isə 12,4 mln. manat təşkil edir. Şirkət fəaliyyətinin əsas prinsipi kimi fiziki və hüquqi şəxslər üçün geniş spektrli sığorta xidmətləri təqdim edir. AtaSığorta müştərilərin təklif və ehtiyaclarını nəzərə alaraq xidmət keyfiyyətini mütəmadi olaraq təkmilləşdirir və müştəri məmnuniyyətini fəaliyyətinin əsas meyarı hesab edir. Şirkətimiz 28 sığorta növü - 24 könüllü və 4 icbari növ - üzrə sığorta xidmətləri göstərir. Şirkətin təqdim etdiyi əsas sığorta növləri arasında əmlak sığortası, nəqliyyat vasitələrinin sığortası, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari və könüllü sığortası, sürücü və sərnişinlərin bədbəxt hadisələrdən sığortası, üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, yüklərin sığortası, inşaat sığortası, işəgötürənin məsuliyyətinin sığortası, tibbi sığorta, fərdi qəza sığortası, bank və bank fəaliyyətinin sığortası və s. vardır.

**- Hal-hazırda Azərbaycanın sığorta bazarında kifayət qədər sığorta şirkətləri fəaliyyət göstərir. "AtaSığorta" onlardan nə ilə seçilir?**

- AtaSığorta olaraq hər zaman müştəri ehtiyaclarını düzgün müəyyən etmək və bu ehtiyaclar əsasında innovativ məhsullar hazırlayıb təqdim etmək fəaliyyətimizin əsasını təşkil edir. Son 3 il ərzində ondan artıq yeni sığorta məhsulu sığortalıların xidmətinə təqdim olunmuş və müştərilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Maraqlı məqamdır ki, bu gün müştərilərimiz sırasında digər sığorta şirkətlərinin əməkdaşları da vardır. Fikrimizcə, informasiya əsrinin əsas tələblərindən biri də məhz dəyişən ehtiyaclara və çağırışlara vaxtında reaksiya verməklə müştərilərə fərqli xidmətlər təqdim etməkdir. Yalnız bu yolla rəqabət mühitində irəli addımlamaq mümkündür.

**- Hansı meyarlara görə müştərilər məhz sizin şirkəti seçirlər? Bilirik ki, bir çox nüfuzlu qurumlar - Heydər Əliyev Mərkəzi, Dövlət Neft Fondu, Müasir İncəsənət Fondu, Azeronline, AtaBank, AG Bank, Dəmirbank, MuğanBank, ParaBank, VTB Bank, AIKON CPIT, Synergy Group, Azpetrol, AzərPoçt, Hydroserv Caspian LTD, McDermott Caspian Contractors Inc. və digər şirkətlər öz bizneslərinin qorunmasını AtaSığorta şirkətinə etibar edirlər. Bunu nə ilə izah edərdiniz?**

- Bəli, sadaladığınız qurumlar müştərilərimiz arasındadır. Ümumiyyətlə, bu gün AtaSığortanın müştəriləri on minlərlə hesablanır. Qeyd edim ki, müştərilərə göstərdiyimiz xidmət üç əsas amilə əsaslanır – keyfiyyət, müddət və qiymət. Keyfiy-yətli xidmət müştərinin şirkətə ilk müraciət anından başlayaraq onun düzgün məlumatlandırılması, ən uyğun sığorta növünün seçilməsi, hadisə vaxtı hansı addımların atılması barədə dəqiq təlimatın verilməsi və ən vacibi sığorta ödənişinin yüksək peşəkarlıqla həyata keçirilməsidir. Müddət amili yuxarıda təsvir olunan proseslərin mümkün ən qısa vaxtda həyata keçirilməsinə əsaslanır. Vaxtında və operativ müdaxilə müştəri məmnuniyyətini artırır və yeni müştərilərin şirkətə axınını təmin edir. Qiymət amilinin müştərilərlə münasibətdə nə qədər əhəmiyyətli olduğunu geniş izah etməyə ehtiyac yoxdur. Hər bir müştəri keyfiyyətli və operativ xidməti ən ucuz qiymətə əldə etməyə çalışır. Bu məqsədlə "AtaSığorta" olaraq anderraytinq siyasətimizin tərkib hissəsi kimi sığorta tariflərini dəqiq aktuar hesablamalar nəticəsində müəyyən etməklə istər yerli, istərsə də xarici təkrarsığortaçılarla ən uyğun tariflərin alınması üçün davamlı iş aparırıq. Bütün bunların nəticəsində "AtaSığorta" bugün on minlərlə müştərinin əminliklə seçdiyi sığorta şirkətinə çevrilmişdir və müştərilərimizin sayı ilbəil artmaqdadır.

**- Bir az da məhsullarınız haqqında məlumat verin.**

- "AtaSığorta" ASC tərəfindən hazırlanan hər bir məhsul müştərilərin maksimal məmnunluğuna, həm korporativ, həm də fərdi müştərilərin maraqlarının bütün xüsusiyyətlərini nəzərə alan ən optimal sığorta məhsullarının onlara təklif edilməsinə yönəlmişdir. Qeyd olunanlara istinad edərək müştərilərə avtomobillərin sığortası ilə bağlı Avtodost məhsulu təqdim olunmuşdur. Bu məhsul özündə sığorta hadisəsi zamanı müştərinin alternativ avtomobil ilə təmin edilməsi, evakuator və yolda təmir, ildə 1 dəfə avtomobilin texniki müayinəsi və digər xidmətləri birləşdirir.

İlk zərər məhsulu. Bu məhsulun əsas üstünlüyü qismən sığorta şərtinin tətbiq olunmamasıdır. Belə ki, müştəri istəyinə uyğun sığorta məbləğini seçə və bu sığorta məbləğinə qədər sığortalanmış itkilərdən qorunduğundan əmin ola bilər.

Bu sığorta məhsulu üzrə təminat yalnız birinci hadisə üzrə verilir. Qeyd olunan məhsul sığortalıya az miqdarda sığorta haqqı ödəməklə sığorta təminatı almaq imkanı verir. Biz sərfəli və asanlıqla əldə oluna bilən sığorta məhsullarını bazara çıxarmaqla müştərilərin bu sahəyə olan marağını artırmaq və sığorta sahəsində maariflənmələri üçün şərait yaratmaq istəyirik.

**- "AtaSığorta" şirkətinin regionlarda fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?**

- Bizimlə işləmək rahatdır. Şirkətin 6 filialı, 4 nümayəndəliyi, 22 xidmət ofisi fəaliyyət göstərməkdədir. Filial, nümayəndəlik və xidmət ofisləri regionlarda yaşayan əhalinin məhsullarımızı daha asan və rahat şəkildə əldə etmələri və müştərilərə yüksək səviyyədə xidmət göstərilməsi üçün fəaliyyət göstərir. Həmçinin, sığorta hadisəsi baş verdikdə qəza komissarlarının hadisə yerinə operativ baxış keçirməsinə kömək edir.

**- Problemləriniz, çətinlikləriniz varmı? Milli valyutamızın devalvasiyası şirkətinizin fəaliyyətinə təsir edibmi?**

- Bildiyiniz kimi, milli valyutanın devalvasiyasından sonra nəqliyyat vasitələrinin ehtiyat hissələrinin və dərman vasitələrinin qiymətləri bahalaşmışdır. Bu da, öz növbəsində, sığorta ödənişlərimizin kəskin artımına səbəb olmuşdur. Həmçinin, şirkət olaraq müştərilərin yaranmış maliyyə çətinliklərinə görə sığorta məhsullarına olan marağının azalmaması üçün tariflərin əvvəlki səviyyədə saxlanılması siyasətini izləyirik ki, bu da artan xərclərin fonunda gəlirlərin azalmasına səbəb olur. Qeyd etmək lazımdır ki, investisiya portfelinin səmərəli idarə olunması nəticəsində qeyd olunan azalmanın bir hissəsinin qarşısı alınmışdır. İnanırıq ki, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən iqtisadi islahatlar qısa müddət ərzində öz müsbət nəticəsini verəcək və yaxın zamanda iqtisadi aktivlik əvvəlki müsbət dinamikasını bərpa edəcəkdir.

**- Orxan müəllim, maraqlı müsahibəyə görə çox sağ olun. Sizə gələcək fəaliyyətinizdə uğurlar diləyirik.**

*Müsahibəni apardı:*
*Yeganə MƏMMƏDOVA*

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsir göstərmişdir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Bu, onunla izah edilir ki, demoqrafiya sahəsindəki siyasət hər bir dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Düşünürük ki, bu sahədə dərin elmi tədqiqatları ilə tanınan Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, AMEA-nın müxbir üzvü, professor Şahbaz Muradovun "Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri" adlı məqaləsi oxucular üçün çox maraqlı olar.*



# Demoqrafik vəziyyətdə baş verən dəyişikliklər və onun nizamlanması istiqamətləri

*(əvvəli ötən sayımızda)*

Fikrimizcə, yaxın gələcəkdə ölkəmizdə demoqrafik vəziyyətin nizamlanması üçün öncə aşağıdakı tədbirlərin həyata keçirilməsi daha məqsədəuyğun olardı: birincisi, uşaqlı ailələrin dövlət səviyyəsində müdafiəsi təmin edilməli və doğum problemi ilə bağlı strateji tədbirlər sistemi həyat tərzinin elə tərəflərinin inkişafına yönəldilməlidir ki, o, uşaqlı ailələrin bütün yaşayış dövrlərində hərtərəfli inkişafına müsbət təsir göstərə bilsin; ikincisi, əhalinin normal təkrar istehsalı prosesinin həyata keçirilməsini təmin etmək məqsədilə respublikada mövcud olan və yeni yaradılan ailələrin ən azı 70-80 faizində 2-3, o cümlədən bütün ailələrin 40-45 faizində 2 nəfər, 30-40 faizində isə 3 nəfər uşaq doğulub tərbiyə edilməsi üçün şərait yaradılmalı; 3-4 uşaqlı ailələrin ideal ailə kimi qiymətləndirilməsi və stimullaşdırılması məqsədilə onların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif ödənişlər və güzəştlər müəyyənləşdirilməli; çoxuşaqlı ailələrə maddi yardımı gücləndirmək məqsədilə xüsusi müəssisələrin, imkanlı adamların könüllü yardımından geniş istifadə edilməklə vəsait cəlb edilməsi təşkil edilməli; üçüncüsü, gənclər arasında nikahların artırılması üçün onlara yardımın və müxtəlif güzəştlərin müəyyən edilməsi, mənzillə təminatı və mənzil şəraitinin yaxşılaşdırılması dövlət səviyyəsində həll edilməli; dördüncüsü, əhalinin ölüm səviyyəsinin, xüsusilə uşaqlar, körpələr və əmək qabiliyyətli yaşında olan adamlar arasında azaldılmalı; anaların mühafizəsinə diqqəti artırmaq üçün səhiyyə sistemi təkmilləşdirilməli, onun maddi-texniki bazası daha da möhkəmləndirilməli, həkim kadrların, o cümlədən uşaq həkimlərinin

hazırlanması və onların ixtisaslarının artırılmasına xüsusi qayğı göstərilməli; beşincisi, demoqrafik siyasət tədbirləri ilə sıx surətdə bağlı olan əhali miqrasiyası məsələləri dövlətin ciddi nəzarəti altına alınmaqla onun kortəbii surətdə baş verməsinə yol verilməməli; bu prosesə təsir göstərmək yolları araşdırılıb tapılmalı, dövlət və cəmiyyət üçün həmin prosesin törədə biləcəyi neqativ hallara qarşı ciddi mübarizə aparılmalı, miqrantların potensialından səmərəli istifadə edilməsi üçün xüsusi tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməli; altıncısı, demoqrafik siyasət tədbirləri, ilk növbədə ailənin qurulması və möhkəmləndirilməsinə yönəldilməlidir. Çünki sivilizasiyalı cəmiyyət, ilk növbədə möhkəm, mənəvi və əxlaqi cəhətdən sağlam ailələrin olmasını tələb edir. Bunu əsas götürərək Azərbaycan dövləti ailəni möhkəmləndirmək, sosial funksiyaların yerinə yetirilməsində, uşaqların tərbiyəsində ona yardım etmək və köməklik göstərmək üçün çoxuşaqlı və gənc ailələrin maddi, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər sistemi işləyib hazırlamağa və həyata keçirməyə borcludur; yeddincisi, Azərbaycan dövləti bundan sonra da yeni dəyərlərə və zamanın tələblərinə uyğun gələn elə demoqrafik tədbirlər sistemi işləyib hazırlamalı və həyata keçirməlidir ki, bu, doğum səviyyəsinin aşağı düşməsi və ölüm səviyyəsinin artmasının qarşısını ala bilsin və gənc ailələrin qurulması və onun möhkəmləndirilməsinə təminat versin. Bu tədbirlər sistemi, ilk növbədə cəmiyyətdə uşaqlı, xüsusilə üç və daha çoxuşaqlı ailələrin nüfuzunun qaldırılmasına, onlara hər cür lazımi şərait yaradılmasına yönəldilməlidir. Nəzərə almaq lazımdır ki, həyata keçirilən sosial-iqtisadi tədbirlər demoqrafik proseslərin inkişafına birdən-birə deyil, uzun bir tarixi dövr ərzində və hər bir ailədə doğulan uşaqların sayına, onların doğulma müddətlərinə verilən üstünlük, şəxsi və ictimai sağlamlıq dəyərinin dərk edilməsi, ailənin möhkəmliyi və yeni yaşayış yerlərinin seçilməsi və s. bu kimi problemlərlə bağlı olan münasibətlərin dəyişilməsi vasitəsilə təsir göstərir. Buna görə də demoqrafik proseslərin nizama salınması məsələlərinin həllinə təkcə müasir tələblər baxımından deyil, əksinə daha çox gələcəkdə bu inkişafın tələb və məqsədləri baxımından yanaşmaq lazımdır. Eyni zamanda, hər hansı demoqrafik prosesin nizamlanması ilə bağlı olan tədbirlər sistemi işlənib hazırlanarkən ona həm konkret, həm də bütünlükdə sosial-iqtisadi hadisələr sistemində baxılmalıdır.

Bu tədbirlər sisteminin lazımi səviyyədə həyata keçirilməsi ölkəmizdə əhalinin normal təkrar istehsalı proseslərinin təmin edilməsinə, onun təbii və mexaniki hərəkətinin ahəngdar gedişinə və demoqrafik vəziyyətin daha da yaxşılaşmasına səbəb olmaqla xalqımızın həyat səviyyəsinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə, ölkəmizin iqtisadi və hərbi qüdrətinin daha da artmasına gətirib çıxaracaqdır.



Ş.M.Muradov
Əməkdar Elm Xadimi,
AMEA-nın müxbir üzvü,
i.e.d., prof.

# Estoniyanın vergi administrasiyasının rəhbəri Vergilər Nazirliyində olub




Noyabrın 22-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Estoniya Respublikasının Maliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Vergi və Gömrük Departamentinin baş direktoru Marek Helmi qəbul edib.

Nazir ölkə başçısı cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun davamlı inkişafı istiqamətində görülən işlər, Azərbaycanın büdcə-vergi siyasəti və vergi sistemində aparılan islahatlar barədə qonağa ətraflı məlumat verib. Bildirilib ki, son 10 ildə vergi sistemi əsaslı şəkildə modernləşdirilib, vergi inzibatçılığı beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilib, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.

Milli vergi sisteminin təkmilləşdirilməsi prosesinin davamlı olduğunu vurğulayan nazir Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı barədə də qonağa məlumat verib. Qeyd edilib ki, islahatların əsas məqsədi ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli şərtlərin yaradılması ilə onların hüquqlarının genişləndirilməsi, vergitutma bazasının təkmilləşdirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılmasından ibarətdir.

Azərbaycanın vergi inzibatçılığında əldə olunmuş nailiyyətlərə toxunan F.Məmmədov bildirib ki, Dünya Bankının 2016-cı il üçün «Doing Business» hesabatına görə, ölkəmiz biznesin qeydiyyatı sahəsində ilk 5 dövlət sırasındadır, vergilərin ödənilməsi meyarına görə isə 40-cı yerdədir. 2013-cü ildən Azərbaycanda lASAN imza» layihəsinin tətbiqinə başlanılması və təhlükəsizlik sisteminin yaradılması istifadəçilərə mobil telefonlar vasitəsilə rəqəmsal uyğunluğun müəyyənləşdirilməsinə imkan yaradıb. Estoniya mütəxəssisləri ilə birgə həyata keçirilən «ASAN imza» layihəsi isə lMobil hökumət»in qurulması və yeni nəsil elektron xidmətlərin tətbiqində yeni mərhələ hesab edilir.

Azərbaycan iqtisadiyyatında müşahidə olunan iqtisadi dayanıqlığı qeyd edən Estoniya Vergi və Gömrük Departamentinin baş direktoru Marek Helm hökumətin qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft gəlirlərinin artırılması sahəsində gördüyü işləri, həmçinin vergi sistemində aparılan islahatları yüksək qiymətləndirib. «ASAN imza» kimi müasir texnoloji alətin yaradılmasında təmsil etdiyi ölkə ilə Azərbaycanın birgə əməkdaşlığından böyük məmnunluq duyduğunu xüsusi qeyd edən Marek Helm 2017-2020-ci illər üçün Estoniyanın Vergi və Gömrük Departamentinin fəaliyyəti və inkişaf istiqamətləri barədə vergilər nazirinə məlumat verib.

Görüşdə Azərbaycanla Estoniya arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Qanunsuz idman-mərc oyunları cinayət məsuliyyəti yaradır

«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» ölkə Prezidentinin 2009-cu il 27 avqust tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında» 2016-cı il 25 oktyabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkilinə və ya keçirilməsinə qarşı mübarizənin gücləndirilməsi, həmin oyunları qanunsuz təşkil edən və ya keçirən şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi və belə halların gələcəkdə baş verməməsi üçün tədbirlərin görülməsi tapşırılıb. Sözügedən tapşırığın icrası məqsədilə vergi orqanları tərəfindən müvafiq sahəyə nəzarət gücləndirilib, mütəmadi olaraq qanunsuz idman-mərc oyunları təşkil edən şəxslərin aşkar edilməsi məqsədilə operativ nəzarət tədbirləri keçirilir.

Vergilər Nazirliyi tərəfindən keçirilmiş növbəti tədbir zamanı Bakı şəhəri, Sabunçu rayonu, R.Axundov küçəsi, 13 saylı evin yaxınlığında fərdi sahibkar İsmayılov Elyar İsrail oğluna məxsus obyektdə qanunla müəyyənləşdirilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkil olunduğu aşkar edilib. Faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1.3.2-ci maddəsi ilə başlanmış cinayət işinin istintaqı zamanı müəyyən edilib ki, E.İsmayılov «Bədən tərbiyəsi və idman haqqında» Qanunun və Nazirlər Kabinetinin «İdman-mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması və idman-mərc oyunlarının təşkili və keçirilməsi qaydaları» haqqında Qərarının müvafiq maddələrinin tələblərini pozmaqla, 2015-ci ilin sentyabr ayından 2016-cı ilin noyabr ayınadək idman-mərc oyunlarının təşkili nəticəsində 168 min manat, yəni külli miqdarda gəlir əldə edib. Nəzarət tədbiri zamanı vergi xidməti əməkdaşlarının qanuni fəaliyyətinə mane olmağa cəhd göstərilib. E.İsmayılova ittiham elan edilib və Yasamal Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Oxşar fakt Sabunçu rayonunun Nazim İsmayılov küçəsi, ev 241 ünvanında keçirilən operativ nəzarət tədbiri zamanı da aşkarlanıb. Həmin ünvanda fərdi sahibkar Babayev Nicat Mənsur oğluna məxsus obyektdə akkreditasiya olunmadan idman-mərc oyunlarının keçirildiyi və bundan başqa, N.Babayevin həmin ünvanda aksiz markası ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış 683,4 manat dəyərində alkoqollu içkiləri satış məqsədilə saxladığı da müəyyənləşdirilərək, qanunsuz saxlanılan alkoqollu içkilər və digər əşyalar maddi dəlil kimi götürülüb. Cinayət Məcəlləsinin 192-1.3.2 və 213-1.1-ci maddələri ilə cinayət işi başlanaraq müvafiq qaydada aparılan istintaq nəticəsində N.Babayevin akkreditasiya olunmadan 06.08.2016-cı il tarixdən 03.11.2016-cı il tarixədək futbol-mərc oyunları təşkil etdiyi və külli miqdarda - 126 min 200 manat məbləğində gəlir əldə etdiyi təsdiqlənib.

Hər iki fakt üzrə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər davam etdirilir.

Vergilər Nazirliyi bir daha xatırladır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan, yaxud xüsusi razılıq almadan həyata keçirilən sahibkarlıq fəaliyyəti inzibati və ya cinayət məsuliyyəti yaradır.

# "Tələbələrə gənclərin vətənpərvərlik tərbiyəsinin inkişaf tədbirləri"




Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Tələbə-gənclərin vətənpərvərlik tərbiyəsinin inkişaf tədbirləri" layihəsi çərçivəsində Azərbaycan İqtisadçılar İttifaqı oktyabr və noyabr aylarında tələbə gənclərlə bir sıra görüşlər keçirmişdir. Görüşlərdə ekspert qismində ADPU-nun dosenti İlham Əhmədov çıxış etmişdir. O, "Milli vətənpərvərlik tərbiyəsi" mövzusunda məruzə edərək, vətənpərvərlik sözünün mahiyyəti haqqında məlumatlar vermiş, vətənpərvərliyin tarixi kökü barədə danışmışdır.

Maraqlı cəhətlərdən biri isə vətənpərvərlik və milli mənəvi şüurun təbliği və aşılanması məsələsinin xüsusilə pedoqogikada diqqət edilməsinin vacib məsələlərdən biri kimi irəli sürülməsidir. Torpaqlarımızın 20%-nin işğalda olduğu bir vaxtda orta məktəblərdə milli şüur tərbiyəsinin aktual problem olduğunu diqqətə çatdıran ekspert pedaqoji kollektivin bu sahədə sistemli tədbirlər keçirməsinin əhəmiyyətini vurğulamışdır: "İctimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Vətənpərvərlik vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, dövlətin müəyyənləşdirdiyi qaydalara şüurlu əməl etməkdə ifadə olunur. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı didaktik əhəmiyyət daşıyır: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Gənclərlə görüşlərdə həmçinin Azərbaycançılıq ideologiyasının daşıyıcısı olan vətənpərvərlik mövqeyinin dövlət quruculuğu prosesindəki rolundan da danışılmışdır. Bu baxımdan, Azərbaycanın ən vacib problemi olan ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, ölkəmizin məruz qaldığı işğala son qoyulması bütün vətəndaşlarımızın, eyni zamanda, dünya azərbaycanlılarının ortaq hədəfi kimi milli ideologiyamızın təməl müddəalarından birini təşkil etdiyi qeyd olunmuşdur: "Bu gün harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar Dağlıq Qarabağ məsələsində həmrəydir və bu, milli birliyimizin göstəricisidir".

Niyə vətənpərvər olmalıyıq? sualına cavab kimi - gəncləri vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməliyik fikri də görüşlərdə diqqətə çatdrılmışdır.

Tələbələrə, həmçinin Heydər Əliyevin milli vətənpərvərlik elmi konsepsiyası nəzərə çatdırılmış, bildirilmişdir ki, Azərbaycan xalqının ən mühüm milli-mənəvi dəyərlərindən biri öz doğma yurduna bağlılıqdır: "Azərbaycan təkcə bu ərazidə yaşayan, yaradan və fəaliyyət göstərən azərbaycanlıların deyil, dünyanın hər yerində yaşayan azərbaycanlıların əzəli vətənidir. Bütün Türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev öz parlaq nitqlərində, məzmunlu çıxışlarında XX əsrdə xalqımızın əldə etdiyi tarixi qələbəni - müstəqilliyimizin qorunub saxlanılmasında xalqın milli şüurunun güclü şəkildə oyanmasını və vətənpərvərlik şüuruna çatdırılmasını dönə-dönə təkrar etmişdir".

Heydər Əliyev hətta çıxışlarının birində qeyd edirdi: "O vaxt Azərbaycan gəncləri, elmi şüurla, vətənpərvərlik şüuru ilə yaşayan insanlar Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi, 20 Yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda, bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Ancaq, eyni zamanda, Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var".

Ekspert İlham Əhmədov Gənclər və İdman Nazirliyinin, ölkədə fəaliyyət göstərən çoxsaylı gənclər təşkilatlarının, gənclərlə işi özünün hədəfi seçən bir sıra ictimai birliklərin xətti ilə həyata keçirilən tədbirlərin də gənclərdə vətənpərvərlik hisslərinin tərbiyəsində mühüm rol oynadığını qeyd etmişdir. Bildirilmişdir ki, gənclərdə vətənpərvərlik ruhunun aşılanması istiqamətində kifayət qədər səmərəli işlər aparılmasına baxmayaraq, bu məsələ gənclərin tərbiyəsi ilə məşğul olan müvafiq qurumların daim diqqət mərkəzində olmalıdır.



# Gələn il üçün qrant müsabiqəsinin mövzuları müzakirə olunub




**Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası 2017-ci il üçün qrant müsabiqəsinə həsr olunan ictimai müzakirə keçirib.**

İclasda ilk olaraq Şuranın layihələrin elektron qəbulu ilə bağlı hazırladığı proqram təminatının yeni versiyası təqdim edilib, proqramdan istifadənin texniki detalları ilə bağlı suallar cavablandırılıb.

Tədbirdə katibliyin icraçı direktoru Fərasət Qurbanov, Milli Məclisin deputatı Şahin İsmayılov, şuranın üzvlərindən Anar Xəlilov, Nərgiz Eyvazova, Rufiz Qonaqov, KİV nümayəndələri və başqaları iştirak ediblər.

Fərasət Qurbanov müsabiqə mövzuları barədə məlumatlar verərək bildirib ki, Şura hər il maliyyə yardımı müsabiqələrinin mövzularını təkmilləşdirir, QHT-lərin ixtiyarına yeni mövzular verir və onların çoxsahəli fəaliyyətini nəzərə alır. Bu il də eyni sistemin tətbiq olunması nəzərdə tutulub.

O qeyd edib ki, qaçqın və məcburi köçkünlərin iqtisadi, sosial sahədə olan problemləri, ailə, qadın və uşaq məsələləri mövzusu, insan alveri, narkomaniya və bu kimi digər zərərli vərdişlərdən gənclərin uzaqlaşdırılması üçün təklif olunan layihələr müasir dövrün tələbləri ilə səsləşməlidir. Bildirilib ki, hüquq mədəniyyətinin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, demokratiyaya aid məsələlər də Şuranın diqqətindədir.

Sonda tədbir iştirakçılarının 2017-ci il üçün qrant müsabiqəsi ilə bağlı təklifləri dinlənilib.

*MƏTANƏT*

# "Gənclərin Ekoloji Maariflənməsi" adlı layihənin icrası tamamlanmışdır

Azərbaycan Respublikası Prezidenti yanında "Gənclər Fondu"nun qrantı hesabına "Gənclik və maarifçilik" İB-nin həyata keçirdiyi "Gənclərin Ekoloji Maariflənməsi" adlı layihənin icrası tamamlanmışdır. Layihə çərçivəsində gənclərin ekoloji sahədə maariflənməsi üzrə tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə mühazirə və disputlar təşkil edilmişdir. Mühazirə prosesində gənclərə ekoloji biliklərin aktuallığı və ətraf mühitin qorunmasının hər bir şəxsin vətəndaşlıq borcu olduğu haqda fikirlər aşılanmışdır. Layihə gənclərin ciddi marağına səbəb olmuşdur.







# Layihə çərçivəsində alim və mütəxəssislərlə geniş fikir mübadiləsi aparıldı

"Gənclik və Maarifçilik" ictimai birliyi tərəfindənAzərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Yerli bitki sortları, müasir ekoloji becərmə texnologiyaları haqda məlumatların toplanması və yayılması ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalına dəstək" adlı layihə icra edilir.

Bu barədə ictimai birlikdən məlumat verilib. Hal-hazıra kimi layihə çərçivəsində müvafiq sahələrdə fəaliyyət göstərən alim və mütəxəssislərlə geniş fikir mübadiləsi aparılıb, fermerlərin və ümumən əhalinin tələbatlarını ödəməyə qadir olan, məhsuldarlıq göstəricilərinə görə xarici sortlardan geri qalmayan, keyfiyyətinə görə isə onları dəfələrlə üstələyən yerli bitki sortları, onların ekoloji təmiz becərmə texnologiyaları, həmçinin fermerlər tərəfindən geniş istifadəsi məsləhət görülən üzvi mənşəli gübrələr haqda məlumatlar vahid mərkəzdə toplanıb. İctimai birliyin ekspertləri ölkədə qədim ənənəvi və elmi seleksiya məhsulları olan yerli və xarici sortların, F1 hibridlərinin, genetik modifikasiya olunmuş bitki nümunələrinin istifadə vəziyyəti və perspektivləri ilə bağlı kənd təsərrüfatı məhsullarının istehsalçıları və aqrar sahə mütəxəssisləri, alimlər arasında keçirilməsi planlaşdırılan sorğu-anketlər hazırlayıblar. Bu sorğuların, eləcə də şifahi aparılan diskussiyaların nəticələri fermer və mütəxəssislərlə keçiriləcək növbəti toplantılarda müzakirə ediləcəkdir. Həmçinin müvafiq sahələrdə biliklərin toplanması, tövsiyələrin hazırlanması üçün maraq doğuran çap (həmçinin internetdən olan) materialları toplanaraq Azərbaycan dilinə tərcüməsi təşkil ediləcəkdir. Çap edilərək fermerlər arasında yayılması planlaşdırılan kataloq məlumatlarının da toplanması həyata keçirilməkdədir.

## GƏNC TƏDQİQATÇININ TRİBUNASI

# SƏNAYE PARKLARI İQTİSADİYYATIN YENİ MÜSTƏVİSİNDƏ

*(Əvvəli 11-17 noyabr 2016-cı il tarixli sayımızda )*



Ölkəmizdə Sənaye Parkının yaradılması ilk dəfə 2002-ci ilin sentyabrında imzalanan "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanda müəyyən edilib. Sənaye parklarının yaradılması bununla yanaşı, bir sıra dövlət proqramlarında, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda, 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda, 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda və 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulub. Həmçinin, 2011-ci ilin mayında Prezident tərəfindən təsdiqlənən "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlər planında Sənaye Parkının yaradılması planlaşdırılıb. Məhz adı qeyd edilən sonuncu dövlət proqramına uyğun olaraq Balaxanı Sənaye Parkı yaradılıb.

Yuxarıda qeyd edilən mühüm sənədlərdə verilmiş tapşırıqların icrası ilə bağlı, xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Həmçinin, BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanıb və Prezidentin 24 aprel 2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilib. İndi isə ölkə ərazisində yaradılan Sənaye parkları ilə tanış olaq.

Sumqayıt Kimya Sənaye Parkı Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə yaradılıb. Sənaye Parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri yaradılır. Cənubi Qafqazın ilk kimya Sənaye Parkı olan Sumqayıt Kimya Sənaye Parkının əsas hədəfləri Qafqaz və Orta Şərq regionunu kimya-sənaye mərkəzinə çevirmək, investorlar üçün geniş imkanlar məkanı olmaq, ölkədə innovativ və yüksək texnoloji istehsallı məhsullar istehsal etməkdir. Burada aqro və tibb kimyası, məişət kimyası, tikinti sənayesi kimyası, elektronika və avtomobil sənayesi kimyası, polimerlər və sənaye avadanlıqlarının istehsalı üçün nəzərdə tutulmuş müəssisələr yerləşir. Kimya Sənaye Parkında 16 mərtəbəli inzibati bina, Sərgi-Konfrans Kompleksi, Peşə Təhsil Mərkəzi, laboratoriya binası, emalatxanalar, Uşaq Baxım Mərkəzi, açıq və qapalı idman meydançaları, Sağlamlıq Mərkəzi, Yataqxana Kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərəcək.

Prezidentinin 2011-ci il 28 dekabr tarixli 1947 nömrəli Sərəncamı ilə Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılıb. Balaxanı Sənaye Parkının idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir. Parkın əsas hədəf sənayeləri bunlardır: plastikin emalı, şin/rezinin istehsalı, elektrik və elektron cihaz tullantılarının emalı, akkumulyatorların emalı, əlvan metal və kabellərin emalı, təhlükəli məişət tullantılarının emalı (batareya, lampalar, civə tərkibli əşyalar və s.), yaşıl (təkrar emal olunmuş) məhsulların təkrar istehsalı. Yaşıl biznesin, əsasən də, tullantıların təkrar emalı sənayesinə marağı artırmaq məqsədilə potensial sahibkar və investorlar üçün Parkın xarici və daxili infrastrukturunun qurulması planlaşdırılır. Belə ki, xarici infrastruktur kimi yol salınacaq, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkiləcək.

Qaradağ Sənaye Parkı "Qaradağ Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 3 iyul 2015-ci il tarixli 1255 nömrəli Sərəncamı ilə yaradılıb. Parkın idarəedici təşkilatı "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Qaradağ Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli gəmiqayırma və digər sənaye istehsalı sahələrinin təşkili, xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına əlverişli şərait yaradan ərazidir. Qaradağ Sənaye Parkının hazırda 1 rezidenti var: "Bakı Gəmiqayırma Zavodu" MMC. "Bakı Gəmiqayırma Zavodu" MMC 2010-cu il dekabrın 10-da SOCAR, Azərbaycan İnvestisiya Şirkəti və Sinqapurun "Keppel Offshore & Marine" şirkəti tərəfindən yaradılıb. 26 avqust 2015-ci il tarixində ona Qaradağ Sənaye Parkının rezidenti statusu verilib. Müəssisə ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. Sənaye Parkının 72 hektar torpaq sahəsində istehsal imkanlarına görə Xəzər dənizi hövzəsində analoqu olmayan bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan dörd və ya 70 min ton yükgötürmə qabiliyyəti olan iki tanker və dörd özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək mümkündür.

*(davamı var)*



***Mahmud Sadıqov, ADİU-nun magistrantı***

# Sığorta bazarındakı son vəziyyət açıqlandı



Cari ilin yanvar-oktyabr ayları ərzində ölkənin 25 sığortaçısı tərəfindən 420 milyon manat həcmində sığorta haqqı toplanmışdır. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 41 milyon manat və ya 11% çoxdur.

Bu dövr ərzində sığortaçıların həyata keçirdiyi sığorta ödənişlərinin məbləği isə 191 milyon manat təşkil etmişdir ki, bu da ötən ilə nisbətdə 36% çoxdur.

Könüllü və icbari sığorta növləri üzrə həmçinin müsbət dinamika müşahidə olunmuşdur. Belə ki, cari ilin 10 ayı ərzində könüllü sığorta növləri üzrə haqlar 15%, ödənişlər isə 38% artmışdır. İcbari sığorta növləri üzrə haqlar 4%, ödənişlər isə 30% artaraq müvafiq olaraq 148 və 47 milyon manat təşkil etmişdir.

# "AtaBank" maliyyə vəziyyətini açıqladı

AtaBank

"AtaBank" ASC şəffaflığa sadiqliyini qoruyaraq maliyyə hesabatlarını açıqlayıb. Bank bu ilin 9 ayında 48 milyon 127 min manat cəmi gəlir əldə edib. Faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra 13 milyon 888 min manatlıq əməliyyat mənfəəti qalıb. Həmçinin, ehtiyatlardan 1 milyon 173,2 min manat götürülərək əməliyyat mənfəətinə əlavə edilib. Qeyd edək ki, ehtiyatların azaldılması AtaBankda 90 günədək gecikmədə olan kreditlərdə risklərin azaldığına işarədir.

"AtaBank" 2016-cı ilin yanvar-sentyabr aylarını əhatən edən 9 ayı 15 milyon 61 min manat xalis mənfəət ilə başa vurub.

Balans hesabatına görə, 30 sentyabr 2016-cı il tarixinə "AtaBank" ASC 479 milyon 449 min manat cəmi aktivlərə, 402 milyon 938 min manat cəmi öhdəliklərə, 76 milyon 510 min manat cəmi kapitala malik olub.

# Kapital Bankda böyük mənfəət

Kapital Bank

"Balans" hesabatını açıqlayan Kapital Bank "Mənfəət və zərər" hesabatını da açıqlayıb.

Bank bu ilin 9 ayını 41 milyon 511 min manat xalis mənfəət ilə başa vurub.

Yanvar-sentyabr aylarında Bankın cəmi gəlirləri 238 milyon 558 min manat, faiz və qeyri-faiz xərcləri 143 milyon 429 min manat təşkil edib və nəticədə 95 milyon 128,96 min manatlıq əməliyyat mənfəəti qalıb. Əməliyyat mənfəətinin 42 milyon 375,44 min manatı ehtiyatların yaradılmasına ayrılıb.

Kapital Bank 52 milyon 753,52 min manatlıq vergidən əvvəlki mənfəətindən 11 milyon 242,41 min manat mənfət vergisi ödəyib. Nəticədə, Bankın 41 milyon 511 min manat xalis mənfəəti qalıb.

# İNNOVASİYA

*İqtisadiyyatımızın innovasiya iqtisadiyyatına istiqamətləndiyi bir şəraitdə əhalinin innovasiya fəallığının yüksəldilməsi ən vacib problemlərdən biridir. Etiraf edək ki, xalq təsərrüfatının əksər sahələrində çalışan işçilərin innovasiya fəallığı aşağıdır.*

*İnnovasiya fəallığının yüksəldilməsi üzrə ölkəmizdə tədqiqatların aparılmamasını və milli dilimizdə yazılı materialların qıtlığını nəzərə alaraq professor Albert Tağıyevin bu yaxınlarda işıq üzü görmüş “İnnovasiya” kitabından (9-cu broşüra) silsilə məqalələri oxucuların nəzərinə çatdırırıq.*



**A.H.TAĞIYEV,
Sumqayıt Dövlət Universitetinin “Menecment” kafedrasının müdiri, professor**



*(əvvəli ötən saylarımızda)*

### İBM korporasiyasının iş təcrübəsi

Dünyanın ən nüfuzlu transmilli korporasiyalarından biri “İnternational Business Machines”-dir. 1987-ci ilin məlumatına görə, satış həcmi 54,2 milyard ABŞ dolları olan İBM bu sahədə dünya üzrə dördüncü yeri tutsa da, illik gəlirinə (5,3 milyard dollar) görə dünyada birinci yerdədir.

İBM-in müvəffəqiyyətinin səbəbləri öyrənilərkən onun əməkdaşları və müştərilər ilə davranışındakı yüksək mədəniyyət çoxlarını heyrətə gətirmişdir. Bundan başqa, İBM-in ümumi davranış prinsiplərinin, rəhbərliyin fəaliyyətinin, satışın təşkilinin, gələcəyə istiqamətləndirilmiş marketinq xidmətinin və s. öyrənilməsi işgüzarlıq fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Bizə elə gəlir ki, satışdan sonrakı xidmət dünyanın heç bir korporasiyasında İBM-də olduğu kimi təşkil edilməyibdir.

İBM-də boş olan rəhbər vəzifələrə kampaniyanın öz işçilərindən götürmək qaydası qəbul edilmişdir. Müstəsna hallarda bu qaydalar pozulur.

İBM-də adamlara müxtəlif üsullarla başa salınır ki, onlar arasında fərq qoyulmur. Məsələn, İBM-in Nyu-Yorkda yerləşən inzibati mərkəzində nə qapıların üstündə, nə də əməkdaşların mizlərində vəzifəni göstərən yazıya rast gəlmək mümkün deyildir. İdarəetmə işçiləri üçün nəzərdə tutulan ayrıca duş otağı yoxdur, eləcə də ayrıca dayanacaq və yeməkxana da yoxdur.

İBM-in davranış kodeksində rəqibin kimliyindən asılı olmayaraq, onun haqqında pis söz işlətmək qadağandır, istehlakçılar uğrunda mübarizədə başqalarının zəif cəhətlərini gözə soxmaqla deyil, yalnız məhsulun və xidmətin yüksək keyfiyyəti hesabına qalib gəlmək olar.

Kampaniyanın kodeksində məsləhət bilinir ki, kampaniyanın ölçüləri, onun müvəffəqiyyətləri, yaxud sahədəki vəziyyəti ilə öyünülməsin. Bunun əvəzində alıcılara İBM-in məhsullarının və xidmətlərinin yüksək keyfiyyətdə olduğu, onun maddi və insan ehtiyatlarının kamilləşməyə can atmaq prinsipləri haqqında ətraflı məlumat verməyə icazə var. Təkmilləşməyə can atmaq üçün kampaniya tərəfindən bir sıra göstəricilər işlənib hazırlanmış, bu göstəricilər üzrə bazar seçmə üsulu ilə mütəmadi olaraq təhlil edilir və təkmilləşmə səviyyəsi haqqında müəyyən qərara gəlinməsi mümkün olur. Təkmilləşmə üzrə mühazirəyə kadrların seçilməsindən başlanır. İBM-də əmindirlər ki, kampaniyada aparılan intensiv hazırlıq kurslarını ən yaxşı mənimsəyənlər ölkənin qabaqcıl universitetlərinin müdavimləri olacaqdırlar. Eyni zamanda, daha mürəkkəb işlərə onlar çox asanlıqla keçə bilirlər. Beləliklə, sadəcə olaraq qabiliyyətli gənclərin kamilləşməyə nail olmaları üçün əlavə olaraq onlar uyğun hazırlıq kursları keçməlidirlər və müvəffəqiyyətə nail olmağa yönəldilməlidirlər. Yarış əhval-ruhiyyəsi İBM-də hökm sürür və müvəffəqiyyətə nail olanlar mükafatlandırılır. Burada rəqabət də güclüdür.

İşə ciddi can yandırmaq nəticəsində işçilər çox şeylərə nail olurlar və onlarda əminlik yaranır ki, daha ciddi və çətin işlərin öhdəsindən asanlıqla gəlmək olar. Beləliklə, işçilərin nikbinlik və təşəbbüskarlıq meyli güclənir, nəticədə işgüzarlığa zəmin yaranır.

İBM-in yaradılmasından xeyli vaxt keçmişdir. Bu müddət ərzində korporasiyada istehsal olunan məhsul, onun istehsal həcmi, işçilərin sayı, istehsal texnologiyası dəfələrlə dəyişmiş və dəyişməkdədir. Lakin korporasiyada dəyişməz bir şey vardırsa, o da onun fəaliyyət prinsipləridir.

İBM ona böyük müvəffəqiyyətlər gətirən ilkin fəaliyyət prinsiplərinə sadiq qalmışdır və yenə də onun həyata keçirilməsinə canla-başla xidmət göstərir. Şəraitlə ayaqlaşan kampaniya heç bir vaxt gizlətmir ki, xarici amil ona öz təsirini  göstərsin və bundan sonra vəziyyətdən çıxış yolu axtarsınlar. Belə kampaniyalar həmişə qabağa baxırlar və özlərinə aşağıdakı kimi suallar verirlər:

- İnformasiya olmazsa nə etməli?
-Əgər istehsal aşağı düşərsə nə etməli?
-Əgər rəqib müəyyən üstünlük qazanarsa nə etməli? və s.

Bu suallara düzgün cavab tapmaq həmişə mümkün olmasa da, bunlar kampaniyanın gələcək inkişafında mühüm əhəmiyyət kəsb edə bilər. İBM yaranandan ata və oğul Uitsonlar bir prinsipə sadiq qalıblar: biz korporasiyamızda hər bir şeyi dəyişirik, biz öz strukturumuzu və məhsulumuzu dəyişirik. Biz nə lazımdır edirik ki, bizim işçilərin öz işlərinə marağını saxlayaq və onların öz qüvvələrini sınaqdan keçirmələrinə imkan yaradaq, bizim pulumuz olsun ki, adamlara, tədqiqata və elmi işlərin tətbiqinə xərcləyək. Alıcıya nə dərəcədə imkanımız çatırsa, yeni mal təklif edək. Biz mənəviyyatımızdan başqa hər bir şeyi dəyişərik. Heç bir vaxt İBM zəruri olan halda iri dəyişikliklərdən qorxmamış və çəkinməmişdir.

İBM-in əməkdaşları özlərinin bazar tədqiqatı və reklam bacarıqlarını, hətta mühasibat işləri üzrə qabaqcıl təcrübələrini alıcılara çatdırırlar. Onlar müştəriləri İBM-in təşkil etdikləri sahə konfranslarına və seminarlarına dəvət edirlər. İBM-in qabaqcıl təcrübəsi ilə tanış olurlar, eyni zamanda, onlar müştərilərdən öyrənirlər.

Sifarişin həcmi, müştərilərə göstərilən xidmət heç cür məhdudlaşdırılmır. Yuxarıda qeyd edilən xidmət hər bir müştəriyə göstərilir. Uzun illərdən bəri İBM bu nəticəyə gəlmişdir ki, dünyanın ən qabaqcıl kampaniyası sırasına çıxmaq üçün elə çevik və həssas xidmət sisteminə malik olmaq lazımdır ki, köhnə müştəriləri saxlamaq və yenilərini İBM məhsulları almağa cəlb etmək qabiliyyətinə yiyələnmiş olsun. Həqiqətən də, İBM belə bir xidmət sisteminə nail ola bilmişdir.

İBM-in əməkdaşlarına elan edildikdə ki, biz kampaniyada sənaye sahəsindən asılı olmayaraq, dünyada tayı-bərabəri olmayan xidmət sistemi yaratmaq istəyirik, bunu əməkdaşlar çox böyük ruh yüksəkliyi ilə qəbul etdilər. İBM-in özünəməxsus xidmət mədəniyyəti yaradıldı. İlk dəfə işə qəbul olunan hər bir kəs ilk olaraq bu məqsədlə yaradılan tədris proqramı ilə tanış olur. Belə əhval-ruhiyyəni əməkdaşlar özlərinin bütün fəaliyyətləri dövründə saxlamağa çalışırlar və saxlayırlar.

Bu kampaniyaların iş təcrübəsinin təhlili göstərir ki, müəssisə işçiləri qarşısında qoyulan konkret problemlərin həlli motivləşdirildikdə onların innovasiya fəallıqları yüksəlir.

# Azərbaycanda ən böyük Bakcell Sumqayıtda fəaliyyətə başladı



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz xidmət və məhsullarını abunəçilərinə daha yaxın etmək məqsədilə satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Bu dəfə şirkət Sumqayıt şəhərində növbəti Satış və Xidmət Mərkəzinin açılışını edib.

Abunəçilər Sumqayıt şəhəri, Üzeyir Hacıbəyov küçəsində (Şərq Bazarının yanı) yerləşən bu yeni konsept və dizaynlı Satış və Xidmət Mərkəzinə təşrif buyurmaq Bakcell xidmət və məhsulları haqda məlumat əldə edə və satışda olan müxtəlif mobil cihazları sınaqdan keçirə bilərlər.

“Sumqayıt bizim abunəçi bazasının çox geniş olduğu şəhərlərdən biridir. Açılışına toplandığımız bu yeni Satış və Xidmət Mərkəzi Azərbaycanda ən böyük “BakcellIM”dir. İnanırıq ki, Sumqayıt şəhərinin sakinləri və qonaqlar bu mərkəzdə bizim xidmətlərimizdən rahatlıqla faydalanacaqlar”, - deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Nikolai Bekers bildirib.

Hazırda “Bakcell”in paytaxt və bölgələrdə 30 Xidmət Mərkəzi öz abunəçilərinə ən üstün müştəri xidməti göstərir. Şirkət öz xidmətlərini abunəçilərinə daha yaxın etmək üçün satış və xidmət şəbəkəsini daha da genişləndirəcək.

# “Expressbank”ın vəziyyəti məlum oldu

expressbank
İşiniz rahat getsin

2016-cı ilin yanvar–sentyabr aylarında “Expressbank” ASC-nin cəmi gəlirləri 36 milyon 397 min manat təşkil edib.

Bankın faiz gəlirləri 29 milyon 253 min manat, qeyr-faiz gəlirləri 7 milyon 144 min manat təşkil edib.

Bank 36 milyon 397 min manatlıq gəliri əldə etmək üçün 23 milyon 265 min manat xərc çəkib və 13 milyon 132  min manatlıq xalis əməliyyat mənfəəti əldə edib. Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 14 milyon 248 min manat ayırma nəzərdə tutulduğundan və 357 min manatlıq mənfəət vergisinə görə, bank bu ilin 9 ayını 1 milyon 473 min manat zərər ilə başa vurub.

2015-ci ilin yanvar–sentyabr dövründə “Expressbank” 40 milyon 463 min manat cəmi gəlir əldə etmiş (o cümlədən 32,937 milyon manat faiz, 7 milyon 526 min manat qeyri-faiz), 3 milyon 603 min manat xalis mənfəət  açıqlamışdı.

### ÖHDƏLİKLƏRİNƏ YAXIN ÖZ KAPİTALI VAR

“Expressbank” güclü kapitalı ilə diqqəti çəkir və bu, iqtisadi çətinliklərin mövcud olduğu dövrdə bankın dözümlülüyünü artırır. 30 sentyabr 2016-cı il tarixinə “Expressbank” 287 milyon 87 min manat cəmi aktivlərə, 148 milyon 551 min manat cəmi öhdəliklərə və 138 milyon 537 min manat cəmi kapitala malik olub.

“Expressbank”da 90 günədək olan gecikən kreditlər Bankın 214 milyon 595 min manatlıq cəmi kredit portfelinin 2,25%-ni təşkil edib.

# AccessBank-a Avropadan böyük dəstək

Avropa İnvestisiya Bankı (AİB) AccessBank-a ikinci kredit xəttinin ayrılmasını təsdiqləyib.

Kreditin məbləği 20 milyon avro təşkil edəcək.

Təqdim olunan vəsaitlər Azərbaycanda   fəaliyyət göstərən kiçik və orta müəssisələrin kreditləşdirilməsinə yönəldiləcək.




AccessBank ölkədə mikro, kiçik və orta biznesi maliyyələşdirən aparıcı maliyyə təşkilatı olduğundan, bu tranzaksiya özəl sektorun inkişafını dəstəkləyəcək.

Bu kredit AİB-in Xarici Kreditləşmə Mandatının vəzifələrinə müvafiqdir. Bu Mandat yerli özəl sektorun inkişafına, xüsusilə KOB müəssisələrinin, sosial və iqtisadi infrastrukturun dəstəklənməsinə, eləcə də iqlim dəyişikliklərinin yumşaldılmasına və uy-ğunlaşmasına yönəldilib.

# BİRBAŞA POÇT REKLAMI



*(əvvəli ötən sayımızda)*

Meyer bu haqda aşağıdakıları deyirdi: “Sizin mətniniz parıldaya bilər, maket və format baş rəssamın gözlərini sevindirə və qamaşdıra bilər, çap-poliqrafiya sənətinə görə ən yüksək mükafata tamamilə layiq ola bilər, lakin əgər sizin göndərişiniz potensial müştərilərə və əmtəə (mal) almağa qadir olan şəxslərə ünvanlanmazsa, sizin bütün həngaməniz bahalı, içi boş şeydən başqa bir şey deyil”.

Göndəriş siyahıları əmtəələrin (xidmətlərin) potensial alıcılarının ünvanlarından ibarətdir. Reklamvericinin və ya reklam agentliyinin əhatə etdiyi qrup müəyyən edildikdən sonra müxtəlif mənbələrdən istifadə edərək ünvanlı şəxslərin siyahısı tərtib olunur. Bunlar xüsusi ünvanlı siyahılar və ya onlarla ticarət edən ixtisaslaşmış firmalar ola bilər.

Xüsusi siyahının yaranması müstəsna mükəmməllik tələb edən işdir. Hər şeydən əvvəl sorğu kitablarından başı çıxan və onlarda yalnız reklamvericini maraqlandıran potensial alıcıları tapan, yaxşı hazırlanmış mütəxəssis lazımdır.

İşlək vəziyyətdə siyahıların saxlanması bahalı, əməktutumlu və fasiləsiz işdir. İnsanlar hər zaman bir yerdən digər yerə köçürlər, evlənirlər, boşanırlar və s. müəssisələr müflis olur, qovuşur, adlarını, yerlərini dəyişir. Siyahıların yalnız daimi təzələnməsi qeyri-məhsuldar göndərişlərin minimuma endirilməsinə kömək edir. Siyahıların işlək vəziyyətdə saxlanmasına qaytarılan poçt göndərişləri ilə təzə ünvanlı informasiyanın müqayisəli yoxlanması kömək edir.

Son illər informasiya texnologiyalarının, xüsusilə kompüterlərin tətbiqi hesabına siyahıların təzələnməsi xeyli dərəcədə asanlaşmışdır. Kompüterlər məqsədli qrupların seçilməsi və ticarət müraciətlərinin personallaşması zamanı böyük seçim qabiliyyətini təmin edir.

Birbaşa poçt reklamından istifadə edilməsi zamanı onu nəzərə almaq lazımdır ki, reklamın göndərişi smetası tərtib edilən zaman poçt tariflərinin artımını, eləcə də inflyasiyanın doğurduğu iş qüvvəsinin materiallarının və çapın qiymətinin ümumi artmasını nəzərə almaq lazımdır.

“Direct mail” metodu üzrə reklamın təşkilinin əsas mərhələlərinə aiddir:

* Potensial işgüzar alıcıların və istehlakçıların poçt ünvanlarının verilənlər bazasının (paylanma siyahısının) formalaşması;
* Məqsədli göndərişlər üçün nəzərdə tutulan informasiya reklam xəbərlərinin və ya hər hansı digər reklam materiallarının, məktubların hazırlanması;
* Ünvanlı şəxslərlə işin və göndərişin təşkili;
* Göndərişin nəticələrinin və onun səmərəliliyinin təhlili və ümumiləşdirilməsi.

Poçt ünvanları bankının (potensial istehlakçıların və ticarət tərəfdaşlarının göndəriş siyahısının) formalaşması bütün reklam kompaniyasının səmərəliliyinin ən mühüm amili kimi çıxış edir.

Göndəriş siyahılarının alınmasına yanaşmanın bir neçə variantı mövcuddur – onları müstəqil etmək, hər hansı bir mübadilə qaydasında almaq, ixtisaslaşmış informasiya və ya reklam agentliklərindən əldə etmək (almaq), statistika xidmətləri və digər təşkilatlar şəbəkəsi vasitəsilə əldə etmək. Xüsusi göndəriş siyahılarının tərtib edilməsi çox zaman müxtəlif sorğu kitabçalarının (idarə, telefon, ünvanlı), müxtəlif firmaların katoloqlarının, yarmarkaların və sərgilərin, müxtəlif nəşrlərin, reklam, informasiya və kommersiya istiqamətli dövri nəşrlərin və s. məzmumu ilə tanış olmaqdan başlanır. Bu əməktutumlu iş mükəmməl, zəhmət və peşəkar təhlil tələb edir və xüsusi marketinq tədqiqatları dərəcəsinə aid edilə bilər. Onun başlıca vəzifəsi “boşa çıxmış atəş” adlanan perspektivsiz göndərişlərin xüsusi çəkisinin minimuma endirilməsidir.

Göndəriş siyahılarının mübadiləsi həmçinin kifayət qədər geniş yayılmışdır. Məsələn, iplik (əyirmə) istehsal və müəyyən növ boyaq istehsal edən firmalar prinsipcə rəqabət aparan şirkətlər deyillər, lakin toxuculuq məhsulları istehsalı müəssisələrinin, fabriklərin və emalatxanaların timsalında eyni məqsədli auditoriyaya malik ola bilər və BPP-in köməyilə onlarla işləyə bilər.

Nəhayət, bir çox ölkələrdə göndəriş siyahılarının tərtib edilməsi ilə peşəkar məşğul olan, böyük miqdarda verilənlər bazasına malik ixtisaslaşmıs agentliklər mövcuddur və bir çox reklamvericilər onların xidmətlərinə müraciət edirlər. Məsələn, Amerika ünvanlı marketinq assosiasiyası hətta öz verilənlər bazasında bu və ya digər təsirlərə konkret insanlar tərəfindən daimi reaksiyanın yoxluğu səbəbinə görə bütün reklam siyahısından çıxarılan bu insanların siyahısını əks etdirir.

Ünvanlar bankının formalaşması qismində qiymətləndirmənin ən yaxşı üsulu ünvanlı şəxslər və onların poçt göndərişlərinin məzmununa reaksiya haqqında xəbərlərin düzgünlüyünə seçim nəzarətidir. Bu keyfiyyətin saxlanması üçün göndəriş siyahılarında xəbərlərin düzgünlüyünün yoxlanılması üzrə müntəzəm işin (ildə 1-2 dəfə keçirilən) olması, yəni bu verilənlər bazasının daimi mövcudluğu lazımdır. O, təşkilatların ünvanının, ayrı-ayrı şəxslərin yaşayış yerlərinin, vəzifələrin və soyadların dəyişməsi, istehsal fəaliyyətinin dayandırılması, onun profilinin dəyişməsi, yeni potensial istehlakçıların əmələ gəlməsi və s. ilə əlaqədardır. Bütün bu dəyişikliklər reklam göndərişlərində müntəzəm nəzərə alınmalıdır.

Ünvanlı şəxslərlə daimi iş, təkrar göndərişlərin həyata keçirilməsi zamanı və reklam kompaniyasının keçirilməsi üçün düzəlişlərin edilməsi, müxabirləşmənin qaytarılmasının və ünvanlı şəxslərin müəyyən reaksiyalarının təsbit edilməsi məqsədilə reyestrinin tərtib edilməsi böyük əhəmiyyət kəsb edir.

*(davamı gələn sayımızda)*

**F.M.Qarayev,
BDU-nun dosenti**

# Muğamımızın fəlsəfi dünyası



**Hələ gənc yaşlarımdan tarımızın füsunkar sədaları məni vəcdə gətirirdi. Nəticədə, məktəbli yaşımda bu aləti sinəmə alıb, ürəyimə yaxın səsləndirməyə nail oldum. Buzovnada musiqi məktəbində müəllimlərdən dərs almağa başladım.**

Tar alətinə qəlbən bağlı olduğumdan başqalarının da ifasından zövq alırdım. Bu günə kimi bizim muğamımız, xanəndələrin müdrik kəlamlarla – Füzulidən Əliağa Vahidə kimi – muğamla ifa olunan səslə sözün vəhdəti məndə yüksək duyğular, həyati enerji və qürur yaradır, daimyaşarlıq məni tərk etmir. Bəli, budur muğamın qüdrəti. O, nəinki zövq verir, insanı yaşadır, həm də Azərbaycan xalqının daima – qədimdən püxtələşən müdrikliyinin zəmanət mənbəyidir.

Bu yaxınlarda sənətşünaslıq və fəlsəfə elmləri doktoru, professor Mina Hacıyeva mənə hədiyyə olaraq özünün qeyri-adi bir kitabını – "Azərbaycan muğam fəlsəfəsi"ni təqdim etdi. Mən bu kitabı böyük həvəslə oxudum. Oxuduqca da, gənclik dövründən bu günə kimi tara, muğama qəlbən vurğun olduğumdan, bu kitabın dərin mənasını, müdrikliyini və xalqımızın, müasir dünyamızın zəngin, çoxşaxəli ahənginə və dövlətimizin insanlar üçün, ələlxüsus da gənclərimiz üçün yaratdığı şəraitin nəticəsi olaraq – ulu öndər Heydər Əliyevin muğam sənətinə, xalq musiqisinə və poetik dünyamıza nəzəri sayəsində faktiki olaraq muğamımızı Azərbaycan xalqına qaytarması nəticəsində, bu musiqi sənəti yeni nəfəs olaraq, inkişafa məruz qaldı. Mənəvi dünyamız zirvələnməyə başladı.

Klassik, müdrik şairlərimizin kəlamlarından minnətdarlıqla zövq alaraq, müasir Azərbaycanımızın möhtərəm cənab Prezidenti İlham Əliyev tərəfindən düşünülmüş siyasət nəticəsində xalqın sərvəti özünə qaytarıldı. Bu iş praktik olaraq UNESCO və İSESCO-nun xoşməramlı səfiri, əzizimiz Mehriban Əliyevanın rəhbərliyi və təşkilatçılığı nəticəsində həyata keçirilir.

Professor Mina Hacıyeva bu kitabı ürəklə, daxili varlığı və saf zəkası ilə olduqca səmimi və bütün cəmiyyətimizə anlamlı dildə təqdim edərək, konseptual elmi-yaradıcılıq tədqiqat əsərini ərsəyə gətirmişdir.

"Azərbaycan muğam fəlsəfəsi" adlı monoqrafik kitabda yeddi Azərbaycan muğamının daxili varlığının mahiyyəti, dramaturgiyası, psixoloji təsiri dəqiqliyilə, obyektiv surətdə analiz edilərək, hər muğamın bir dəstgah olaraq xüsusiyyətləri Mina Hacıyeva tərəfindən məharətlə şərh edilir, fəlsəfi anlamda açılır. Bu, elmi yenilikdir. Muğamların mahir bilicisi, ustad sənətkar, əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru Arif Əsədullayev professor Mina Hacıyevaya məsləhətçi olaraq, muğamların araşdırılmasında müvəffəqiyyətlə iştirak etdiyinin hiss olunduğunu qeyd edir. Lakin problemin fəlsəfi ümumiləşdirilmələri və nəticələri, şübhəsiz ki, kitabın müəllifinə aiddir.

Muğam təfəkkürü milli zəmində indi intibah dövrünü keçirir. Belə tarixi hadisə milli mənlik, milli qürur və böyük strateji məna daşıyır. Xalqımızın tarixi, dahi şəxsiyyətləri olan Nizami, Füzuli, Nəsimi, Xəqani, Əssar Təbrizi, Xətai, Vaqif, Zakir, müasirimiz Əliağa Vahid kəlamlarındakı müdrik, kəsərli sözlər insanlarımızda milli qürur və ruh yüksəkliyi yaratmışdır. Muğam dəstgahları və müdrik kəlamlar cəmiyyətimizdə milli ruhun möhkəmlənməsi işində böyük hadisəyə çevrilmişdir. Bu, nəinki insan qəlbini estetik zövqlə yüksəldir, əsasən idrakı anlamı düşündürür, müdrikliyə sövq edir. Professor Mina Hacıyevanın oxuyub, dərk etdiyim "Azərbaycan muğam fəlsəfəsi" adlı monoqrafik kitabı cəmiyyətimizin dialektik inkişaf prosesində tarixi baxışdan olduqca zəruri hadisədir.




Muğam məfhumu elə bir fenomendir ki, imkanları sonsuzdur. Onun üçün də dünya simfonik forması muğam elementlərilə birləşəndə yeni, qeyri-adi bədiilik yaranır ki, nəticədə Fikrət Əmirovun iki simfonik muğamı – "Şur" və "Kürd-Ovşarı" musiqi dünyasını lərzəyə gətirir. Okeanın o biri tayında - Amerika dirijoru Stakovski tərəfindən əzəmətli konsert salonlarında, böyük simfonik orkestrlə müvəffəqiyyətlə ifa edilir və səsyazma studiyalarında lentə alınır. Və yaxud, Azərbaycan dirijoru və bəstəkarı Niyazi bundan ruhlanaraq, "Rast" simfonik muğamını bəstələdi və Azərbaycan Dövlət Simfonik orkestrilə ifası ilə əzəmətli sənət növünü yaratdı. Görün ki, muğamın varlığının imkanları yeniliklərə məruz qalaraq, beynəlxalq səviyyəyə qalxaraq, qitələrdə dinləyicilərə zövq verir və dərindən düşündürür.

Ümumən, böyük bəstəkarlar nəsli muğamı genetik kod olaraq, Üzeyir Hacıbəyli, Qara Qarayev, Arif Məlikov, Tofiq Quliyev, Rauf Hacıyev, Tofiq Bakıxanov və gələn nəsil bəstəkarları fərqli janrlarda – istər mahnı olsun, istər opera, balet və başqa janrlarda yaratdıqları musiqi əsərlərində muğamlarımızdan istifadə edərək dəyərli əsərlər bəstələmişlər.

Professor Mina Hacıyeva olduqca dərin düşüncəli, yüksək mədəni və poetik hisslərlə Azərbaycanın dəyərli bəstəkar musiqisindəki muğamın köklü yollarını elə bir elmi incəliklə və inandırıcı araşdırmalarla sübuta yetirmişdir ki, hansı janr olursa olsun, Azərbaycan musiqisinin kökündə, nəfsində, hisslərində etik-estetik intonasiyalar fəlsəfi təfəkkürümüzün əsasında yaranmış və hər hansı bir əcnəbi musiqilərinə bənzəməyən, Azərbaycan xalqına xas olan, məxsusi Azərbaycan musiqisi səslənməsində dərin və qüdrətli fəlsəfi təfəkkür mövcuddur. Bir də ki, elə musiqilərimizin mövzuları da müdrik klassiklərimizdən müasir kəlam ustadlarımıza kimi dərin fəlsəfi anlamı, durmadan inkişaf edərək, müasir cəmiyyətimizin gələcəyini özündə ehtiva edən ulu öndər Heydər Əliyev və onun müdrik davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev cənabının apardığı siyasətin nəticəsidir. Mina Hacıyevanın bu kitabı əvvəldən axıra kimi, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli sərvətlərimizin, ələlxüsus, Azərbaycan muğamının xalqımıza yüksək bədii səviyyədə qaytarılması işində və Dünya miqyasına, Avropa ölkələrində mədəniyyətimizin inkişafı, çiçəklənməsinin əyani sübutu və Azərbaycan xalqının qədim olduğu və müasir dünyada hərtərəfli inkişafının səviyyəsinin göstəricisidir.

Sərvətlərin, nailiyyətlərin mövcudluğu əsas amildir. Lakin onların dünyaya təqdimi və xalqımızın ondan bəhrələnməsi, istər iqtisadi sahədə, istərsə də mənəvi, mədəni, elmi sahələrdə vacib və xalqımızın sivilizə dövlətlər sırasında öz ali yerini tutmasıdır.

İqtisadi və mənəvi sərvətlərimizin yüksəlişi xalqın və dövlətin qüdrətinin göstəricisidir.

Professor Mina Hacıyevanın "Azərbaycan muğam fəlsəfəsi" monoqrafik kitabı sivilizə xalqların dillərində də işıq üzü görməlidir. Böyük zövqlə, dərin fəlsəfi açıqlamalarla, səmimi və bədii dildə yazdığı monoqrafik kitabın işıq üzü görməsi münasibətilə professor Mina Hacıyevanı ürəkdən təbrik edirəm.

*Akademik Ziyad Səmədzadə*

## Sağlamlığınızı qoruyun!




# Gizli qatil

Hazırda həyatımızı telsiz texnologiyalar olmadan təsəvvür etmək çox çətindir. Praktiki olaraq hər yerdə - kafelərdə, evlərdə, parklarda, əyləncə mərkəzlərində, təhsil ocaqlarında Wi-Fi-ın köməyilə İnternetə qoşulmaq mümkündür. Elə məkanlar var ki, burada Wi-Fi sutkada 24 saat işləyir. İnternetə kabelsiz qoşulmaq üçün geniş şəkildə istifadə etdiyimiz telsiz Wi-Fi şəbəkəsi, demək olar ki, faktiki olaraq hər yerdə tətbiq olunur. Lakin çox az adam bilir ki, Wi-Fi avadanlıqlarına qulluqla məşğul olan işçilərdə insanların sağlamlığına dəyən zərəri minimuma endirmək üçün konkret təlimatlar mövcuddur.

İnsan orqanizminə böyük təsiri olan zərərli mühitdə çox qalmaq hansı fəsadlarla müşayiət olunur? Bunun qarşısını özümüz necə ala bilərik?

Mobil telefonlar və planşetlər kimi telsiz qurğuları İnternetə qoşmaq üçün marşrutizatorlardan istifadə edirlər. Bu marşrutizatorlar insan sağlamlığına böyük zərər verən elektromaqnit dalğaları – WLAN siqnalları buraxır. Biz tez-tez bu faktı nəzərə almırıq, belə ki, bu haqda, demək olar ki, heç nə bilmirik. Lakin vaxt keçdikcə bu siqnallar bizim sağlamlığımıza zərər yetirməkdə davam edir və ciddi xəstəliklərin yaranmasına səbəb olur. Böyük Britaniya Səhiyyə Agentliyinin apardığı tədqiqatlar sübut etmişdir ki, Wi-Fi marşrutizatorları uşaqların böyüməsinə və hətta bitkilərin artmasına mane olur.

Wi-Fi təsirinin nəticələri:

- Xroniki yorğunluq;
- Qulaqlarda ağrı;
- Diqqəti cəmləşdirə bilməmək;
- Güclü baş ağrıları;
- Yuxusuzluq.





Mütəxəssislərin fikrincə, elektromaqnit dalğaları, ilk növbədə mərkəzi sinir sisteminə təsir edir. Problem burasındadır ki, insanlar internetdən və ya mobil qurğulardan istifadə etmədikdə belə, ətraflarında bu qurğuların mənfi təsirinə məruz qalırlar. Hazırda bütün məktəblərdə Wi-Fi istifadə olunur. Bəlkə də insanların bu qurğunun mənfi təsirini və yaratdığı fəsadları başa düşməsi üçün bir neçə onilliklər lazım gələcək. Həkimlər həyəcan təbili çalaraq deyirlər ki, mobil telefonların ciblərdə gəzdirilməsi səbəbindən gənc qızlar və oğlanlar arasında sonsuzluq artmaqdadır.

Bütün bu təsirlərin gücünü azca da olsa, azaltmaq üçün bəzi qaydalara riayət etmək lazımdır. Mənzillərdə gecələr və istifadə olunmayan vaxtlarda Wi-Fi-ı şəbəkədən ayırmaq, uşaqların otaqlarından uzaq yerlərdə quraşdırmaq lazımdır. İnternetdən istifadəyə gəldikdə isə, arada fasilələr etmək, açıq havada gəzmək daha yaxşı olar. Ümumiyyətlə, uşaqların kompüterdən, telefondan, planşetdən istifadə müddətini minimuma endirmək lazımdır. Onların başqa uşaqlarla ünsiyyətdə olması daha faydalı olar.

Bilə-bilə öz sağlamlığınıza, övladlarınızın gələcəyinə qəsd etməyin. Bu barədə dəfələrlə eşidirsiniz, oxuyursunuz. Bu yazını oxuduqdan sonra heç olmazsa, onlarla ailədə Wi-Fi-ın yeri dəyişilərsə, uşaq otaqlarından uzaqlaşdırılarsa və ya gecələr söndürülərsə, buna ancaq sevinərik.

***YEGANƏ***

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr



– Metal dolablar
– Metal stellaj sistemi
– Metal tumbalar
– Metal seyflər
– Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

# "PAŞA Həyat"ın əməkdaşı ABŞ-ın nüfuzlu araşdırma şirkəti tərəfindən təltif edilib

"PAŞA Həyat Sığorta" şirkətinin əməkdaşı ABŞ-ın nüfuzlu araşdırma şirkəti olan LIMRA tərəfindən qalib elan edilib.

Şirkətin İctimaiyyətlə əlaqələr xidmətinin verdiyi məlumata görə, "PAŞA Həyat Sığorta" şirkətinin satış departamentinin direktoru Samir Kazımov LIMRA tərəfindən dünya üzrə elan edilən "25 parlayan ulduz" nominasiyasının qalibi olub və ona "Rising Star of Innovation" mükafatı təqdim edilib.

Qeyd edək ki, LIMRA təşkilatı 40 yaşınadək olan şəxslər arasında maliyyə, biznes sahəsində yenilik edən "25 parlayan ulduz" nominasiyası üzrə ərizələrin qəbuluna bu ilin avqust ayından başlayıb və bu ilin oktyabr ayının sonunda qaliblərin siyahısı açıqlanıb. Dünya qalibləri sırasında "PAŞA Həyat"ın əməkdaşı Samir Kazımovun da adı yer alıb.

Onu da qeyd edək ki, Samir Kazımov sığorta, o cümlədən həyat sığortası məhsullarının satışı sahəsində yeni satış texnologiyalarına malik olmaqla, şirkətdə satışın operativ təşkil edilməsi, satış kanallarının genişləndirilməsi və müştəri cəlbetmə taktikalarında yeniliklər tətbiq edib.



Xatırladaq ki, baş ofisi ABŞ-da yerləşən LİMRA dünya üzrə tanınmış axtarış, tədqiqat, təlim və inkişaf üzrə maliyyə qurumudur. Təşkilat 850-dən çox müxtəlif maliyyə xidmətləri göstərməklə öz üzvlərini effektiv biznes strategiyasını inkişaf etdirmək üçün müxtəlif araşdırmalar, hesabat və digər məlumatlarla təmin edir.

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3150